# QÜLLƏDƏKİ KİÇİK ADAM

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- GİRİŞ

- BEYİNDƏKİ KİÇİK DÜNYA
  - Xarici aləmdə işıq yoxdur
  - Görən, göz deyil
  - Xarici dünya ilə sizin aranızdakı üç mərhələli divar
  - Öz bədənimiz və yuxularımız

- QÜLLƏNİN ZİRVƏSİNDƏKİ KİÇİK ADAM
  - Qüllə və zirvədəki bağlı otaq

- QÜLLƏYƏ İNANMAĞIN AXMAQLIĞI
  - Hiss və vəhm mərtəbəsində yaradılmış olan maddə
  - Materializm: Dünya həyatının həqiqi zənn edilən zahiri şərhi
  - Məkan məfhumunun ortadan qalxması
  - Allahın təyin etdiyi səbəb-nəticə əlaqələri

- NƏTİCƏ

- Əlavə I:
- QÜLLƏDƏKİ ADAM HAQQINDA ŞƏRHLƏR
  - Zəmanəmizdəki alimlərin və mütəfəkkirlərinn bu mövzudakı şərhləri

- Əlavə II:
- TƏKAMÜL YALANI

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran

hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# ƏHƏMİYYƏTLİ AÇIQLAMA: MADDƏNİN ARXASINDAKI SİRR MÖVZUSU, VƏHDƏTİ-VÜCUD DEYİL

Maddənin ardındakı sirr mövzusu, bəzi kəslərin etirazlarına səbəb olur. Həmin insanlar, bu mövzunun əsasını səhv anladıqları üçün, bu mövzunun vəhdəti-vücud təlimi ilə eyni olduğunu iddia edirlər.

Əvvəlcə bunu ifadə edək ki, bu əsərlərin müəllifi əhli-sünnə inancına möhkəm bağlıdır və vəhdəti-vücud təlimini müdafiə etmir. Həmçinin unutmamaq lazımdır ki, vəhdəti-vücud təlimi Muhyiddin İbn Ərəbi kimi çox böyük İslam alimləri tərəfindən müdafiə edilmişdir.

Vəhdəti-vücud düşüncəsini izah edən bir çox əhəmiyyətli İslam aliminin keçmişdə bu kitablarda bəhs edilən mövzuları düşünərək izah etdikləri doğrudur. Ancaq bu əsərlərdə bəhs edilənlər vəhdəti-vücud düşüncəsi ilə eyni deyil.

Məsələn, vəhdəti-vücud düşüncəsini müdafiə edənlərin bir qismi yanlış fikirlərə düşərək, Qurana və əhli-sünnə inancına zidd bəzi iddialar irəli sürmüşlər; məsələn, Allahın yaratdığı varlıqları tamamilə yox hesab etmişlər. Halbuki, maddənin arxasındakı sirr mövzusu izah edilərkən qətiyyən belə bir iddia yoxdur. Bu mövzu, Allahın bütün varlıqları yaratdığını, ancaq yaratdığı varlıqların əslini Allahın gördüyünü, insanların isə bu varlıqların beyinlərində əmələ gələn görüntülərini görə bildiklərini izah edir.

Gördüyümüz bütün varlıqlar, dağlar, düzənliklər, çiçəklər, insanlar, dənizlər, qısaca desək, gördüyümüz hər şey, Allahın Quranda var olduğunu, yoxdan var etdiyini ifadə etdiyi hər varlıq yaradılmışdır və vardır. Ancaq, insanlar bu varlıqların əslini duyğu orqanları yolu ilə görə bilməz, hiss edə və ya eşidə bilməzlər.

Gördükləri və hiss etdikləri, bu varlıqların beyinlərindəki surətləridir. Bu elmi bir həqiqətdir və bu gün başda tibb fakültələri olmaq üzrə bütün məktəblərdə öyrədilən elmi bir mövzudur. Məsələn, hal-hazırda bu yazını oxuyan bir insan, bu yazının əslini görə bilməz, bu yazının əslinə toxuna bilməz. Bu yazının əslindən gələn işıq, insanın gözündəki bəzi hüceyrələr tərəfindən elektrik siqnalına çevrilir. Bu elektrik siqnalı, beyinin arxasındakı görmə mərkəzinə gedərək, bu mərkəzi xəbərdar edər. Və insanın beyninin arxasında bu yazının görüntüsü əmələ gəlir. Yəni siz hal-hazırda gözünüzlə, gözünüzün önündəki bir yazını oxumursunuz. Bu yazı sizin beyninizin arxasındakı görmə mərkəzində meydana gəlir. Sizin oxuduğunuz yazı beyninizin arxasındakı "yazının nüsxəsidir" dır. Bu yazının əslini isə Allah görür.

Nəticə olaraq, maddənin beynimizdə əmələ gələn bir xəyal olması onu "yox" olduğunu sübut etməz.  Ancaq bizə insanın təmasda olduğu maddənin mahiyyəti haqqında məlumat verir ki, bu da maddənin əsli ilə heç bir insanın təmasda olmadığı həqiqətidir.

Bu həqiqət idealizm, Matrix fəlsəfəsi və Maddənin əsli adlı kitabımızda bu şəkildə dilə gətirilmişdir:

## Xarici aləmdə maddə vardır, ancaq maddənin əsli əlçatmazdır!

Maddə xəyaldır demək, maddə yoxdur demək deyil. Əksinə biz görsək də, görməsək də maddi bir dünya var. Ancaq biz bu dünyanı beynimizin içində bir nüsxə –digər bir ifadəylə hisslərimizin şərhi olaraq– görərik. Bu səbəbdən maddə, bizim üçün xəyaldır.

Qaldı ki, çöldə maddənin varlığını, bizdən başqa görən varlıqlar da var. Allahın mələkləri, yazıçı olaraq təyin etdiyi elçiləri də bu dünyaya şahidlik edirlər:

**Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın. (Qaf surəsi, 17-18)**

Hər şeydən əhəmiyyətlisi, ən əsas Allah hər şeyi görür. Bu dünyanı hər cür təfərrüatı ilə Allah yaratmışdır və Allah hər halıyla görür. Quran ayələrində belə xəbər verilir:

**... Allahdan qorxun və bilin ki, Allah nə etdiklərinizi görəndir. (Bəqərə surəsi, 233)**

**De ki: "Mənimlə sizin aranızda şahid olaraq Allah yetər; şübhəsiz O, qullarından Xəbərdardır, Görəndir." (İsra surəsi, 96)**

Həmçinin, unutmamaq lazımdır ki, Allah bütün hadisələri "Lövhi-Məhfuz" adlı kitabda saxlayır. Biz görməsək də bunların hamısı Lövhi-Məhfuzda vardır. Hər şeyin Allahın Qatında, Lövhi-Məhfuz olaraq adlandırılan "Ana Kitab"da saxlandığı belə bildirilir:

**Şübhəsiz ki, o, Bizim Yanımızda olan kitabda; çox ucadır, hikmət doludur. (Zuxruf surəsi, 4)**

... Dərgahımızda (bütün bunları) saxlayıb-qoruyan bir Kitab vardır. (Qaf surəsi, 4)

Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Nəml surəsi, 75)

# Necə dünyada yaşayırsınız?

Sərt bir yerin üzərində uzanan, içində insanların, ağacların, dənizlərin və ya binaların olduğu, üzərində buludların gəzişdiyi, daha yuxarıda nəhəng bir kosmos boşluğunun uzandığı bir dünyadırmı bura?

Siz də bu dünyanın içindəki milyardlarla insandan birisinizmi?

Əgər bu suallara "bəli" deyə cavabı versəniz yanılmış olarsınız.

Əgər bu suallara "bəli" cavabı verirsinizsə, sizin üçün çox əhəmiyyətli olan bir həqiqəti bəlkə həyatınız boyunca görməzlikdən gəlmisiniz deməkdir.

Çünki siz yuxarıda təsvir edildiyi kimi bir dünyada yaşamırsınız. Əslində dünyanız çox daha kiçikdir. Bu dünyanın içində, nəinki milyardlarla kilometrlik məsafələr, ya da işıq ili uzaqlığındakı qalaktikalar, həmçinin bir neçə metrlik məsafə belə yoxdur. Siz əslində çox kiçik və qapalı bir məkanda yaşayırsınız: nəhəng bir qüllənin təpəsindəki kiçik, qapısı möhürlənmiş bir otaqda. Bu otaqdan həyatınız boyunca heç çıxmadınız. Bu otağı tərk edib heç bir yerə gedə bilmədiniz.  Sadəcə, otağın divarlarına əks etdirilən müxtəlif formalı, insanlar, məkanlar gördünüz. Otağının içindəki gizli spikerlərdən çıxan səsləri eşitdiniz. Əslində qüllənin təpəsindəki bu kiçik otaqda sizdən başqa heç kim yoxdur. Tək-tənhasınız!

Bəhs etdiyimiz qüllə sizin bədəniniz, bu qüllənin təpəsindəki kiçik otaq (yəni sizin dünyanız) isə beyninizdir.

Beyniniz, sizin üçün heç bir zaman çıxa bilmədiyiniz bağlı bir otaqdır; çünki sizin əslini gördüyünüzü zənn etdiyiniz hər şey, əslində beyninizin görmə, eşitmə və ya toxunma mərkəzlərində hiss etdiyiniz qavrayışlardan ibarətdir. Heç bir zaman qavrayışlarınızı aşıb "həqiqi maddə"yə, çöldə var olan maddənin əsli ilə təmasda bilməzsiniz. Beyninizin görmə mərkəzinə gələn elektrik siqnallarını seyr edər, heç bir zaman bu siqnalların həqiqi qaynağını görə bilməzsiniz. Sanki, bağlı otağınızın divarındakı kino pərdəsini seyr edərsiniz, amma heç bir zaman pərdə üzərindəki şəkillərin əsli ilə təmasda ola bilməzsiniz.

Bu kitabda sizə bu həqiqəti izah edəcəyik. Burada izah edilənlər, indiyə qədər alışmış olduğunuz bir çox düşüncə və anlayışla böyük ehtimalla tərs gələcək. Ancaq burada izah edilənlər, fəlsəfi bir fikir, ya da fərqli şərh forması deyil, elmin ortaya qoyduğu dəlillərə əsaslanan konkret bir həqiqətdir. Bu səbəblə, vərdişlərə əsaslanmadan, ağıl və məntiqlə düşünüldüyündə bu həqiqətin rədd edilməsi mümkün deyil.

Və unutmayın ki, həqiqəti görməzlikdən gəlmək, düşünməmək insanlara heç bir şey qazandırmaz. Əgər insan, "xeyr mən bağlı bir otaqda deyil, nəhəng bir kainatın içindəki

planetin üzərində yaşayıram" deyirsə, bunu isbat etməsi lazımdır. İsbat edə bilmədiyi halda belə bir düşüncəyə kor-koranə inanmaq, insanı ancaq səhv düşüncələrə sürüyər.

# BEYİNDƏKİ KİÇİK DÜNYA

İnsanlar, olduqca inandırıcı görünən görüntülərə aldana və bu görüntüləri "həqiqi maddə" zənn edə bilərlər.

Tarixdəki ilk "kino nümayişi", bunun maraqlı bir nümunəsidir. 1895-ci ildə Auguste və Louis Lumierez adlı iki fransız ixtiraçısının Parisdə etdikləri bu ilk nümayişdə, stansiyaya yaxınlaşan bir qatarın görüntüsü pərdəyə əks etdirilmiş, ancaq zaldakı tamaşaçıların çoxu, qatarın onları əzəcəyindən qorxaraq çaxnaşma halında çölə qaçmışlar.

Bu nümunədən də aydın olduğu kimi, bir görünüşü "həqiqət" zənn edə bilməyimiz, görünüşdəki texniki keyfiyyət ilə yaxından əlaqədardır. İlk dəfə kino pərdəsi görən insanlar, bu, o dövr üçün çox üstün bir texnologiya olduğu üçün, gördükləri qatarın "həqiqi" olduğunu sanmış və çaxnaşmaya qapılmışlar. Bu gün isə eyni təsir, holoqram (üçölçülü görüntü) meydana gətirən xüsusi eynəklər sayəsində əldə edilir. Bu eynəyi taxan insanlar, gözlərinin qarşısında yaradılan virtual dünyanın gerçək olduğu hissinə qapılır, bu hissə görə hərəkət edirlər. Halbuki bu əsnada, bunun tamamilə virtual bir görüntü olduğunu qəti olaraq bilirlər.

Yaxşı "həqiqi dünya" dediyimiz görünüşlərin vəziyyəti nədir? Bunlar da texniki keyfiyyətləri səbəbiylə bizi yanıldan bir holoqram ola bilərmi?

Bu sualın cavabını tapmaq üçün, ilk növbədə, "görmə"nin nə olduğu haqqındakı məlumatlarımızı yenidən düşünməyimiz lazımdır.

## Xarici aləmdə işıq yoxdur

Zəmanəmizdə elm adamlarının son elmi ixtiralar işığında tapdıqları maraqlı bir həqiqət vardır: Dünyamız həqiqətdə zülmət qaranlıqdır. Çünki bu gün artıq məlumdur ki, işıq tamamilə subyektiv bir anlayışdır; yəni insanların beynində bir hiss olaraq meydana gələr. Həqiqətdə xarici aləmdə işıq yoxdur. Nə lampalarımız, nə avtomobil faraları, nə də ən böyük işıq qaynağı olaraq bildiyimiz Günəş əslində işıq saçmaz.

Günəş və digər "işıq qaynaqları", sadəcə çox müxtəlif dalğa uzunluqlarında fərqli növdə elektromaqnit hissəciklər saçar. Bu hissəciklər, strukturlarının nəzərdə tutduğu şəkildə kainata yayılır. Bunlardan bir qismi dünyamıza çatır və yenə strukturlarının tələb ilə müxtəlif təsir meydana gətirir. Bu təsir, hissəciyin həcminə, ağırlığına, sürətinə, tezliyinə görə dəyişir.

Məsələn, bir çox radioaktiv hissəcik bədənimizin içindən keçib gedər. Onları ancaq qurğuşun lövhələri dayandıra bilər. Bu hissəciklərin bəziləri elə ağır və enerji yüklüdür ki,

çox vaxt toqquşduqları molekulu parçalayaraq yollarına azmadan davam edərlər. Bu, radiasiyanın xərçəngə yol açmasının arxasında duran səbəbdir. Daha zəif bir radiasiya olan rentgen şüalarından faydalanılaraq rentgen cihazları ixtira edilmişdir. Bu cihazların gördüyü iş, radio dalğalarının meydana gətirdiyi təsiri "görülə bilən işığa" çevirmək, yəni gözlərimiz tərəfindən qəbul edilə bilən hala gətirməkdir.

Radio dalğalarda hissəciklər olmadığı üçün toqquşma zamanı insana zərər verməzlər. Bu dalğalar heç bir duyğu orqanımız tərəfindən hiss olunmaz, ancaq evlərimizdəki radiolar bunları qulaqlarımız tərəfindən eşidilən səs dalğalarına çevirər. Radioda bir yayım olmadıqda eşidilən xışıltı, əslində Günəş və bütün ulduzlar tərəfindən kainatın başlanğıcından bu yana yayılan kosmik fon radiasiyasının "səsidir". Burada "səs" sözü ilə nəzərdə tutulan, bu dalğaların radiolarımız tərəfindən işlənərək qulaqlarımız tərəfindən eşidilə bilən hala gətirilməsindən sonra beynimizdə meydana gətirdikləri qavrayışdır.

"İşıq" dediyimiz qavrayış mənbəyini təşkil edən fotonlar isə daha çox yüngül hissəciklərdir və əksəriyyətlə ilk toqquşduqları atomdan sıçrayarlar. Üstəlik bunu edərkən dəydikləri yerə çox zərər də verməzlər. Tezlikləri, yəni titrəşmə sürətləri səbəbiylə daha çox enerji yüklü olan ultrabənövşəyi şüaları, dərimizə nüfuz edə bilər və bəzən genetik şifrəmizdə pozulmalara səbəb ola bilər. Müəyyən saatlarda günəş işığına həddindən artıq çox məruz qalmanın xərçəngə səbəb ola bilməsi də buna görədir.

Tezlikləri gərəyi infraqırmızı olaraq adlandırılan fotonlar isə toqquşduqları səthdə enerjilərinin bir qismini buraxarlar və buradakı atomların titrəmə sürətini, yəni istiliyini artırırlar. Bu istiqamətləriylə infraqırmızı şüalar, istilik şüaları olaraq da adlandırılır. Közərmiş bir kömür sobası və ya bir elektrik sobası bol miqdarda infraqırmızı şüa yayar. Bu şüalar dərimiz tərəfindən istilik hissi olaraq "görülər", yəni qəbul edilər.

Məhz fotonların bir qismi də vardır ki, tezlikləri ultrabənövşəyi və infraqırmızı şüaların arasında qalmışdır. Bunlar gözümüzün arxasındakı retina təbəqəsinə düşdüyündə buradakı hüceyrələr tərəfindən elektrik siqnalına çevrilirlər. Biz də əslində bir hissəcik olan fotonları "işıq" olaraq qəbul edərik. Əgər gözümüzdəki hüceyrələr fotonları "istilik hissəcikləri" olaraq qavrayarlarsa, o zaman bizim üçün işıq, rəng və qaranlıq olaraq adlandırdığımız anlayışlar heç bir zaman olmayacaq, cisimlərə baxdığımızda onların yalnız "isti" və ya "soyuq" olduqlarını hiss edəcəkdik.

## Görən göz deyil

İndiyə qədər radiasiya növləri üzərində bu şəkildə texniki şərhlər etməyimizin səbəbi, bunların olduqları mühitdə "işıq" adlı bir təsir əmələ gətirmədiklərinin başa düşülməsi üçün idi. Bəhs etdiyimiz radioaktiv hissələr hərəkət edərlər,

toqquşarlar, sıçrayarlar, bəzən qırar və pozarlar, fiziki və kimyəvi təsirlər meydana gətirərlər. Lakin meydana gətirdikləri təsirlərin heç biri işıq olaraq adlandırıla bilməz.

Bizim bu hissələrin bəzilərini "işıq şüaları" olaraq adlandırmağımızın tək səbəbi, bunların gözümüz tərəfindən qəbul edilməsidir. Gözümüzün arxasındakı retina təbəqəsinə düşən fotonlar, buradakı qavrama hüceyrələri tərəfindən elektrik cərəyanına çevrilirlər. Bu elektrik axını sinirlər tərəfindən beyindəki görmə mərkəzinə daşınar. Beyindəki görmə mərkəzi bu elektrik cərəyanlarını şərh edərək bir görünüş meydana gətirər.

Bu sistemə baxdığımızda maraqlı bir nəticəyə gəlirik: Əslində gözümüzün "görmə" kimi bir xüsusiyyəti yoxdur. Göz, sadəcə fotonları elektrik siqnalına çevirən ara bölmədir. İdrak etmə qabiliyyəti yoxdur. Ətrafımızı əhatə etdiyini düşündüyümüz tərtəmiz dünyanı seyr edən göz deyil. İşıq və ya rəng hissi gözdə meydana gəlməz.

Bu mövzunu daha yaxşı qavraya bilmək üçün görmənin texniki tərifini bir az daha ətraflı araşdıraq.

Biz hər bir tezlikdəki (titrəmədəki) fotonlara bir rəng adı veririk. Fotonun titrəmə uzunluğuna görə qırmızı, mavi və ya sarı deyərik. Bütün tezliklərin birləşməsi isə ağı meydana gətirər. Kağız ağdır, çünki hər tezliyi əks etdirər və bunların birləşməsi ağı meydana gətirər. Yarpaq yaşıldır, çünki yalnız yaşıl rəng hissi verən tezliklərdəki fotonları əks etdirir, geri qalanları əmər. Şüşə şəffafdır, çünki fotonlar demək olar ki, heç bir maneə ilə qarşılaşmadan şüşənin içindən keçərək bizə çata bilərlər. Qara bir parça, bütün fotonları udduqları üçün geriyə heç bir şey əks olunmaz. Yəni buradan gözümüzə fotonlar çatmaz, biz də onu qaranlıq, yəni qara olaraq qəbul edirik. Güzgü görünüşün surətini göstərər, çünki əks etdirmə səthi hamardır və gələn şüalar toqquşub sıçradıqları anda bir-birlərinə olan paralellikləri demək olar ki, heç pozulmaz.

Bu məlumatlar, işıq, qaranlıq, ağ, yaşıl, şəffaf kimi anlayışlar beyində yaranan qavrayışdan ibarətdir, tamamilə nisbi anlayışlar olduğunu göstərir. Həqiqətdə xarici dünyada nə işıq, nə də rəng vardır. Sadəcə bizim bu şəkildə şərh edəcəyimiz radiasiya növləri vardır. Şərhlər tamamilə bizə aiddir. Gözdə meydana gələcək bir səhv və ya quruluşca bir fərqlilik, gələn fotonları fərqli elektrik siqnallarına çevirəcək və beyindəki görmə mərkəzi eyni xüsusiyyətdə belə olsa, göz tərəfindən işlənən siqnallar, eyni cismin çox fərqli şəkillərdə qəbul edilməsinə səbəb olacaq. Rəng korları ilə normal görənlərin müəyyən rəngləri çox fərqli qəbul etmələri və şərh etmələri bu səbəbdəndir.

Qısacası, bizim işıq və ya rəng olaraq şərh etdiyimiz foton hərəkətləri, zülmət qaranlıq bir mühitdə reallaşan fiziki hadisələrdən başqa bir şey deyil. Göz də daxil olmaq üzrə bütün bədənimiz və 3 ölçülü, rəngarəng bir məkan olaraq gördüyümüz, bəzi insanların qəti olaraq var olduğunu iddia etdikləri bütün maddi aləm, bu qaranlığın içində yerləşir.

# Xarici aləm ilə sizin aranızdakı üç mərhələli divar

Diqqət edilsə, elmin ortaya qoyduğu bu nəticələr bizə çox əhəmiyyətli bir həqiqəti göstərir: Biz xarici aləmdə maddənin əsli ilə heç vaxt təmasda ola bilmərik.

Məsələn, qarşısına keçib seyr etdiyimiz televizorun özünü heç bir zaman görə bilmərik. Bizə yalnız bu televizordan çıxıb gələn və ya ona dəyib əks olunan fotonlar çatar. Bunlar işıq deyil, hissəciklərdir. Bir divara dəyən tennis topunun geri sıçraması və bizim də yalnız bu topu görməyimiz kimi bir vəziyyətdir bu. Yəni daha bu mərhələdə televizorun əslindən bir mərhələ qopmuş olarıq. Fotonlar gözümüzə gəlib retina hüceyrələrinə toqquşduqda isə, buradakı fermentlər tərəfindən elektrik enerjisinə çevrilirlər. Yəni televizorun əslindən ikinci bir mərhələ daha qoparıq. Bu elektrik enerjisi sinirlər tərəfindən beynimizdəki görünüş mərkəzinə çatdırıldığında, bir daha dəyişikliyə uğrayar və "görüntü" dediyimiz formaya bürünər. Bu, üçüncü mərhələdir. Tək bir mərhələ belə "həqiqi televizor" ilə bizim aramızdakı əlaqəni qoparmağa kifayət ikən, bu iş tam üç fərqli mərhələdə üç dəfə reallaşar.

Bir nümunə vermək lazım olsa, bu, bir-birinə qapılarla bağlanmış 3 ayrı otağın içindəki 3 adamla qulaqdan qulağa oynamaq kimidir. Sizin qulağınıza fısıldanan cümləni həqiqətən ilk adammı söyləmişdir; ikinci və ya üçüncü adam bunu dəyişdirərəkmi ötürmüşlər; üçüncü adam bunu tamamilə özümü ortaya atmışdır; bunların heç birindən əmin ola bilməzsiniz. İlk və ikinci kəslərin əslən nəyi söylədiklərindən belə əmin ola bilməzsiniz.

Mövzunu daha da yaxşı açıqlayacaq bir başqa nümunəni belə verə bilərik: Sizi bir təcrübə üçün 1 illiyinə xarici dünyaya tamamilə qapalı yeraltı otağa bağladıqlarını fərz edin. Xarici dünya ilə yeganə əlaqəmiz də qarşınızdakı qapalı dövrə televizor ekranı olsun. Otağa girərək ekranı ilk açdığınızda belə bir yazıyla qarşılaşırsınız: "Bu ekranda izləyəcəyiniz görüntülər, Afrika qitəsində canlı olaraq yayımlanan kameralardan çatdırılır. Bu kameraların təsbit etdiyi görünüşlər canlı olaraq peyklərə ötürülür, peyklərdən bu otağın yuxarısındakı ötürücülərə ötürülür, buradan da sizin ekranınıza daşınır".

Bu mesajın doğru olub-olmadığından heç bir zaman əmin ola bilməzsiniz, çünki görüntünün ötürüldüyü hər mərhələdə, görünüşün süni bir qaynaqdan gəlməsi mümkündür. Afrika qitəsində çəkiliş aparıldığı iddia edilən kameralar, əslində illər əvvəl çəkilmiş bir video kaseti göstərir və peyk üzərindən bu kaset sizə ötürülmüş ola bilər. Bundan əlavə, ortada heç bir kamera və peyk olmayıb, sizə yalnız yan otaqdakı bir video cihazından kaset izlətdirilə bilər. Afrika qitəsinə şəxsən getmədikcə bunu bilməzsiniz. Amma otaqdan çıxa bilmədiyinizə görə, Afrikaya gedib hadisələrin "əslini" görməniz də əsla mümkün olmaz.

Buna baxmayaraq yenə də bu otağa girməmişdən əvvəl xarici dünya haqqında əldə etdiyiniz məlumatlar və bu otaqdan bir zaman sonra təkrar çıxacaq olduğunuzu bilməniz, sizə ekranda gördüklərinizin "əsl" olduğuna dair bir qənaət təmin edə bilər. Ancaq əgər bu otaq, sizin doğulduğunuz gündən bu yana həyatınızı keçirdiyiniz yerdirsə? Həyatınız boyunca bu otaqdan heç çıxmadınızsa? Həyatınız boyunca "xarici dünya" olaraq yalnız qarşınızdakı ekranı görürsünüzsə? O zaman, bu ekranda gördüyünüz şeylərin "əsilləri ilə təmasda olduğunuza" dair heç bir dəlil qalmaz. Çünki təmasda olduğunuz tək şey, ekrandakı görüntülərdir.

Görmə duyğusu üçün izah etdiyimiz bu kimi faktlar, eşitmə, toxunma, dad və qoxu hissləri üçün də keçərlidir. Bunların hər birini beynimizdəki bağlı otaqların (eşitmə, toxunma, dad və qoxu mərkəzlərinin) içində qavrayırıq. Bunların xarici dünyadakı həqiqi qarşılıqlarına əsla çata bilmərik. Dinlədiyimiz radionun səsi, beynimizdəki eşitmə mərkəzinin içindədir. Xaricdə hər hansı bir səs yoxdur, yalnız "səs dalğası" dediyimiz fiziki hərəkətlər var. Bu fiziki hərəkətlər müxtəlif mərhələlərdən keçdikdən sonra bizə elektrik siqnalı olaraq gəlir. Bir elektrik siqnalı olaraq qəbul etdiyimiz səsin çöldə həqiqi bir qarşılığı olub-olmadığını əsla bilmərik. Yuxarıdakı bağlı otaq nümunəsinin üzərində təkrar düşünsək, bizə "Afrika meşələrindəki aslanların kükrəməsi" olaraq dinlədilən səslər, həqiqətdə bağlı otağımızın yan tərəfindəki bir studiyada yaradılan süni səslər ola bilər.

## Öz bədənimiz və yuxularımız

Buraya qədər mövzunu daha asan qavramaq üçün həmişə digər cisimlərdən bəhs etdik. Bir televizorun əslini görə bilmərik, bir radionun əslini eşidə bilmərik. Bütün şəkillər, səslər, qoxular və dadlar beynimizdəki əlaqədar mərkəzlərin içində yaranan qavrayışlardır. Xaricimizdəki bir dünyanın içində deyil, içimizdəki bir dünyada yaşayırıq.

İnsanların bu açıq həqiqəti qavramaqda çətinlik çəkmələrinə səbəb olan bir amil, öz bədənləri mövzusunda səhv düşüncələridir. Aşağıya baxdıqlarında gördükləri bədən və bu bədənin hər tərəfindən özlərinə çatan toxunma hissləri, onların dünyanı səhv qavramalarına səbəb olur. Bu bədənin verdiyi təəssürat səbəbiylə, sanki bir "xarici aləm"in içində yaşadıqları hissinə qapılarlar.

Halbuki bəhs etdiyimiz bədənin də, digər cisimlər kimi beynimizdəki qavrayışı ilə təmasda oluruq. Bədənimizə dair bütün məlumatlarımız, yəni bədənimizin görünüşü və beynimizə çatan toxunma hissləri, beynimizin əlaqədar qavrama mərkəzlərindədir.

Yuxularımızı düşünsək bu mövzunu daha asan qavraya bilərik. Yuxunuzda özünüzü tamamilə xəyali dünyalar içində görürsünüz. Ətrafınızda gördüyünüz cisimlərin və insanların heç bir həqiqiliyi yoxdur. Üzərində gəzdiyiniz torpaq, yuxarıdakı səma,

gördüyünüz evlər, ağaclar, avtomobillər və digər hər şey tamamilə xəyaldır; maddi bir qarşılığı yoxdur. Və hamısının yeri, sizin beyninizin içidir. Beyninizdə, daha doğrusu zehninizdə vardırlar və bundan başqa bir yerdə də deyildirlər.

Diqqət etsəniz, eyni vəziyyət yuxunuzda gördüyünüz öz bədəniniz üçün də keçərlidir. Yuxunuzda da, indi olduğu kimi, aşağıya doğru baxdığınızda əli-qolu olan, gəzən, nəfəs alan, toxunma hissləri olan bir bədən görərsiniz. Bu bədən yuxu xaricindəki həqiqi həyatda gördüyünüz bədəndən bir xeyli fərqli də ola bilər. Bəlkə özünüzü üç qollu, dörd ayaqlı qəribə bir canavar kimi də görə bilərsiniz. Bu üç ayrı qolun üçündə də toxunma duyğusu hiss edə bilərsiniz. Bir başqa yuxuda isə, özünüzü qanadları olub uça bilən bir canlı olaraq görə bilər, bu qanadları çox inandırıcı bir şəkildə hiss edə bilərsiniz. Bir yuxuda görülə biləcək olan bu virtual bədənlərin hamısı, yalnız sizin zehninizdə mövcud olan, amma sanki zehninizin xaricindəymiş kimi hiss etdiyiniz qavrayışlardan ibarətdir.

Yuxu nümunəsi bizə bunu göstərir: Bədənimizi çox həqiqi bir şəkildə hiss etməyimiz, həqiqətən fiziki mənada belə bir bədənə sahib olduğumuzu göstərməz. Ortada heç bir fiziki bədən yoxkən də, tamamilə zehnimizin içindəki bir bədən qavrayışını "vücudumuz" olaraq görüb hiss edə bilərik.

Yaxşı, yuxular ilə "həqiqi həyat" arasındakı fərq nədir? Yuxuların həqiqi həyat dediyimiz qavrayışlara görə daha davamsız, məntiqi cəhətdən əsassız və qeyri-müntəzəm olduğu doğrudur. Amma bunun xaricində, texniki olaraq, yuxu ilə "həqiqi həyat" arasında fərq yoxdur. Çünki hər ikisi də, beyinin içindəki qəbul mərkəzlərinin xəbərdar edilməsi yolu ilə baş verir.

Əvvəlki səhifələrdə "gerçək həyat" dediyimiz qavrayışların görmə mərkəzi, eşitmə mərkəzi kimi beyin hissələrində yaşandığını araşdırmışdıq. Bir ensiklopdiyada, yuxunun da eyni şəkildə yaşandığı belə izah edilir:

Yuxu görmək, digər bütün zehni əməliyyatlar kimi, beyinin və fəaliyyətlərinin məhsuludur. Bir insan istər oyaq, istərsə yuxuda olsun, beyin daimi olaraq elektrik dalğalar verir. Elm adamları bu dalğaları "elektroensephalograf" adı verilən bir cihazla ölçürlər. Yuxunun böyük hissəsində, beyin dalğaları geniş və yavaşdır. Amma bəzi müəyyən zamanlarda, daha kiçik və sürətli hala gəlirlər, gözlər sanki, yuxu görən adam ardıcıl hadisəni seyr edirmiş kimi olduqca sürətli hərəkət etməyə başlayır. Yuxunun REM (Rapid Eye Movement-Sürətli Göz Hərəkəti) deyilən bu qismi, yuxuların çoxunun meydana gəldiyi hissədir.

Əgər adam REM əsnasında oyandırılırsa, gördüyü yuxunun təfərrüatlarını böyük ehtimalla xatırlayacaq ... REM yuxusu əsnasında, beyindən əzələlərə siqnal göndərən sinir yolları bağlanacaq. Bu səbəbdən, yuxu əsnasında bədən hərəkət etməz. Həmçinin serebral korteks (beyinin yüksək zehni funksiyalarla əlaqədar qismi) REM əsnasında, röya görülməyən yuxu hissələrinə görə daha çox aktivdir. Korteks, beyinin "beyin sistemi" adı verilən hissəsindən gələn neyronların (sinir hüceyrələrinin) daşıdığı impulslar

(xəbərdarlıqlar) tərəfindən hərəkətə keçirilir. *(World Book Multimedia Encyclopedia, "Dream", World Book Inc., 1998)*

Yəni yuxu beynimizin əlaqədar mərkəzlərinə gələn impulsların (xəbərdarlıqların) şərhindən ibarət qavrayışlar toplusudur.

Diqqət etsəniz, "həqiqi həyat" dediyimiz həyat da tamamilə eyni şəkildə meydana gələr: Beynimizin əlaqədar mərkəzlərinə gələn xəbərdarlıqlar, bu mərkəzlərdə şərh olunar və biz bu qavrayışlar toplusunu "xarici dünya" olaraq qəbul edərik.

Buradakı kritik sual, bu qavrayışların qaynağının nə olduğu sualıdır. Vərdişlərimiz, bizi həmişə əsli ilə təmasda olduğumuza inandırmışdır. Halbuki, xaricdə maddə vardır, ancaq biz o maddənin əslini heç bir zaman bilə bilmərik.

Mövzunu daha yaxşı başa düşmək üçün yuxu üzərində düşünməyə davam edək. Yuxu görən bir insandan bunu soruşaq: "Gördüyün qavrayışların qaynağı nədir?" Bu suala böyük ehtimalla "xarici aləmdəki cisimlər və bunları qəbul edən bədənim" deyəcək. Amma ortada nə xarici aləm, nə də bu dünyanı qavrayan bir bədən vardır. Gördüyü hər şey, beynindəki əlaqədar mərkəzlər tərəfindən qəbul edilən siqnallardan ibarətdir.

Bizim də gördüyümüz, eşitdiyimiz, toxunduğumuz, dadını və qoxusunu aldığımız hər şey, beynimizdəki əlaqədar mərkəzlər tərəfindən qəbul edilən siqnallardan ibarət olduğuna görə, o zaman xarici aləmin əsli ilə təmasda olduğumuzdan necə əmin ola bilərik?

Əmin olacağını iddia edən kəs, eyni zamanda özünün "qüllənin təpəsindəki kiçik adam" olduğunu da iddia etmiş olur.

Səbəbini bir sonrakı hissədə araşdıraq.

# QÜLLƏNİN ZİRVƏSİNDƏKİ KİÇİK ADAM

Əvvəlki hissədə araşdırdıqlarımızı qısaca yekunlaşdıraq: Bizim gördüyümüz, eşitdiyimiz, toxunduğumuz və adına "maddə" dediyimiz şeylərin əslini heç bir zaman bilə bilmərik. Biz əslində beynimizdə izlədiyimiz qavrayışlarla təmasda oluruq. Heç bir zaman beynimizdən çölə çıxıb gördüklərimizin, eşitdiklərimizin, toxunduqlarımızın əsli ilə təmasda ola bilmərik, bunların əsllərinin necə olduğuna nəzarət edə bilmərik. Yuxu ilə həqiqi həyat arasında texniki bir fərq yoxdur, hər ikisini də beynimizdə görərik. Bizim çox böyük sandığımız dünya, əslində beynimizin içinə sıxışmış qavrayışlar toplusudur. Bizdən milyardlarla kilometr uzaqda sandığımız nəhəng qalaktikalar, beynimizdəki görüntü mərkəzində yerləşən, yəni bizdən "uzaqda" deyil, əksinə "içimizdə" var olan hisslərdir.

Bu, insanların çoxunun, bəlkə də hamısının xəbərsiz olduğu çox böyük bir həqiqətdir. Amma başqalarının bu həqiqətdən xəbərsiz olması, bizim üçün bir bəhanəyə səbəb olmaz. Çünki "başqalarını" da beynimizin içində görürük. Bir görünüşlə əlaqədəyik və gördüklərimizi anlamaqla məsul olan bizik.

Gördüyümüz insanların hamısı bizə "bu dünyanın əslini görürsünüz, surətini deyil" desə də, bu bir şeyi dəyişdirməz. Yuxunuzda da minlərlə insanın bir ağızdan "bu bir yuxu deyil, həqiqətdir" dediklərinə şahid ola bilərsiniz. Amma bir az sonra yuxu bitər və bu kəslər bir anda yox olarlar. Çünki bir hiss olmaqdan başqa, onsuz da heç var olmamışlar. Həqiqi həyat da bir gün –ölümlə birlikdə– belə bitəcək və gördüyümüz bütün varlıqlar (bizə "bu, dünyanın əsli" deyən insanlar daxil) yox olub gedəcəklər, onların yerinə yeni bir aləm qarşımıza çıxacaq. Bu, axirət aləmidir. Allah, dünyadakı kölgə varlıqları özlərinə həyat məqsədi halına gətirən və ya onlardan mədət uman və beləcə onları bütləşdirən insanların ölüm anındakı vəziyyətini Quranda izah edərkən bu həqiqəti belə açıqlayır:

**... Nəhayət, elçilərimiz onların son vermək üzrə yanlarına gəldikdə: "Allahdan başqa ibadət etdiyiniz bütləriniz haradadır?" "Onlar bizi qoyub qaçdılar!" Deyəcəklər. (Beləliklə) Bunlar, həqiqətən kafirlər olduqlarına öz əleyhlərində şahidlik etdilər. (Əraf surəsi, 37)**

Burada izah etdiyimiz həqiqətlərə etiraz edənlər, materialistlərdir. Yəni maddənin mütləq varlıq olduğu və insan zehninin də maddənin törəməsi olduğu səhvinə inananlardır. Materialistlər ümumiyyətlə burada izah edilən həqiqəti, yəni maddənin əsli ilə heç bir zaman təmasda ola bilmədiyimiz həqiqətini düşünmək və müzakirə istəməzlər. Hətta çox

vaxt buna əsəbiləşərlər. Maddə dediyimiz anlayışın həqiqətdə zehnimizdəki qavrayış halını bildiyimiz, 18-ci əsrdə məşhur İngilis mütəfəkkir və din adamı Corc Berkeley tərəfindən sistemli bir şəkildə açıqlandığında, materialistlər qəzəbli reaksiyalar vermişlər. Eyni dövrdə yaşayan materialist mütəfəkkir Samuel Johnson, bir daşa təpik atmış və "budur, Berkeleyi çürütdüm" deyə bağırmışdır. Halbuki, Johnsonun -və daha sonra bənzər cavablar verən digər materialistlərin- primitiv reaksiyası yalnız mövzunu anlamaqdan nə qədər uzaq olduqlarını göstərir. Çünki nə daşlara təpik atmaları, nə divarları yumruqlamaları, maddənin əsli ilə təmasda olduqlarına dair bir dəlil meydana gətirməz. O anda etdikləri və hiss etdikləri hər şey, bir hiss olaraq beyinlərinin içindədir. Daşa təpik atan da beyinin içindəki daşa təpik atar, divarı yumruqlayan da beyinin içindəki divarın görüntüsünü yumruqlayar. Necə ki, yuxularında da daşları eyni reallıqla təpikləyə bilərlər; amma onlar da qəbul edəcəklər ki, daş sadəcə beyinlərindəki bir hissdir.

Materialistlərin bu mövzudakı müqavimətlərinin təməlində yenə çox zaman bu mövzunu qavraya bilməmələri durur. Maddənin mütləq varlığına özlərini doqmatik bir şəkildə inandırmışlar və bunu müzakirə etməkdən şiddətlə çəkinirlər. Biz onları bir az daha səmimi düşünməyə dəvət edirik. Və düşünmək istəmədikləri bir həqiqəti onlar üçün düşünüb açıqlayırıq:

Bu həqiqət, əgər maddənin əsli ilə təmasda olduqlarını qəbul edirlərsə, özlərini də "qüllənin təpəsindəki kiçik adam" olaraq qəbul etmələri lazım olduğudur.

## Qüllə və zirvəsindəki bağlı otaq

Bu kitabın adını da meydana gətirən bəhs etdiyimiz qüllə anlayışı, mövzunu daha yaxşı açıqlamaq üçün istifadə etdiyimiz bir nümunədir.

Mənası budur: Əgər indi beyninizin içində olan dünya görüntüsünün və öz bədəninizə aid görüntünün xarici aləmdəki əsli ilə təmasda olduğunuzu iddia etsəniz, o zaman bütün bu görüntüləri kəllənin içində daşıyan nəhəng bir bədənin varlığını da qəbul etməniz lazımdır. Bu vəziyyətdə siz, hər şeyi beyninizdə qavradığınıza görə sanki nəhəng bir qüllənin təpəsindəki kiçik bir otağa həbs edilmiş kiçik bir adam olarsınız.

Bu nəticəyə necə gəlindiyini mərhələ-mərhələ düşünək:

1) Hal-hazırda gözlərinizi çevirib ətrafa baxdığınızda bir çox cisim görürsünüz. Divarlar, əşyalar, səma, evlər, insanlar, avtomobillər və bütün bunlarla yanaşı bir də öz bədəniniz. Bütün bu cisimlərin hamısı, bədəniniz də daxil olmaq üzrə eyni yerdədirlər.

2) Bu yer görəsən haradır? Əvvəlki səhifələrdə şərhləri xatırlasanız bu yerin başqa hər hansı bir yer deyil, birbaşa sizin beyninizin içindəki görmə mərkəzi olduğunu fərq edə bilərsiniz. Yəni təmasda olduğunuz bütün dünya, öz bədəniniz də daxil olmaq üzrə,

kəllənizin içində, beyninizin arxa tərəflərində yerləşən bir neçə $sm^3$ həcmindəki sahədədir. Hal-hazırda kəllənizin içindəki bu sahədəki kitaba baxırsınız. Kitabı əllərinizlə çevirərkən gördüyünüz və hiss etdiyiniz əllər beyninizin görmə və toxunma mərkəzlərində yerləşir. Bədəninizin bütün orqanları da eyni yerdə; kəllənizin içindədir. Bu kitabı oxuyarkən oturduğunuz kreslo, kreslonun içində olduğu otaq da eyni yerdədir.

3) Yaxşı qavrayışı ilə təmasda olduğunuz və kəllənizin içində yerləşən bu bədəndən başqa, çöldəki bədəninizin əslini gördüyünüzə mi inanırsınız? Əgər belə bir bədəni gördüyünüzə inanırsınızsa, bilin ki, onu indiyə qədər heç görə bilmədiniz. Necə bir şey olduğuna dair heç bir qəti məlumata sahib deyilsiniz. Belə bir bədənin necə olduğuna dair yalnız fərziyyə irəli sürə bilərsiniz.

4) Əgər bədəninizin əslini gördüyünüzə inanırsınızsa, onun indi gördüyünüz bədəninizin xaricində yerləşən bir nəhəng olduğunu qəbul etməniz lazımdır. Siz və bütün gördükləriniz, yəni otağınız və ya kənardakı cisimlərin hamısı bu nəhəngin kəlləsindəki görmə mərkəzində yerləşdiyinə görə, onun maddi bədənini həddindən artıq çox böyük olması lazımdır. Hal-hazırda olduğunuz məkandan daha aşağıda çiyinləri, qolları, bədəni, baldırları və ayaqları uzanmalıdır. (Əgər o da sizin kimi iki qollu, iki ayaqlı bir insandırsa.)

5) Bu vəziyyətdə, siz bir nəhəngin kəlləsində yaşayan miniatür insan olarsınız. Bir başqa ifadəylə, nəhəng bir qüllənin təpəsindəki kilidli bir otaqda yaşayan, bu otaqdan heç bir zaman çıxa bilməyən, yalnız önünə qoyulan ekranı seyr edən, həbs edilmiş bir insan olarsınız. Qüllə, əslini gördüyünüzü iddia etdiyiniz bədəniniz, gördüyünüz bədən isə qüllənin təpəsində həbs olan kiçik adamdır.

Bu nəhəng qülləni (yəni əslini gördüyünüzü sandığınız bədəninizi) heç görə bilməzsiniz. Çünki qüllənin təpəsindəki kiçik qaranlıq otağa həbs edilmişsiniz. Həyatınız boyunca o otaqdan çıxa bilməzsiniz. O qaranlıq otağın divarlarına əks etdirilən görüntüləri izləyərsiniz. Bu görüntülərdəki bəzi cisimlər (məsələn ulduzlar) sizə bəlkə milyonlarla kilometr uzaqlıqda kimi gələ bilər. Halbuki həqiqətdə həmişə eyni kiçik otağının içindəsiniz.

Bu mövzunu daha yaxşı başa düşmək üçün, televizorlarda tez-tez rast gəldiyimiz fantastik cizgi filmlərdən də bir nümunə verə bilərik. Bu cizgi filmlərinin bəzilərində nəhəng bir bədən, kəlləsindəki nəzarət mərkəzində oturan bir adam tərəfindən nəzarət edilir. Məsələn, "Voltran" adlı məşhur cizgi filmdə, nəhəng robotlar, baş hissəsindəki mərkəzdə oturan bir adam tərəfindən idarə olunar. Nəhəng robot bu insanın əmrlərinə görə hərəkət edər. Adam, nəhəng bir qüllə böyüklüyündəki robotun içində oturan kiçik bir vücuddur.

Məhz əgər indi gördüyünüz, hiss etdiyiniz bədənin əsli ilə təmasda olduğunuza inanırsınızsa, belə bir sistemi qəbul etməniz lazımdır. Bir başqa ifadəylə, sanki "bir qüllənin təpəsindəki otaqda oturan kiçik adam" və ya "nəhəng bir robotun təpəsində oturan kiçik adam" olduğunuzu qəbul etməniz lazımdır.

Əgər indi gördüyünüz, hiss etdiyiniz bədənin təxminən 1.80 metrə yaxın boyu olduğunu düşünürsünüzsə, ediləcək müqayisədə, çöldə əsli ilə təmasda olduğunuzu qəbul etdiyiniz bədənin, bir neçə $sm^3$ ölçüsündəki qavrama mərkəzlərinə görə bir nəhəng halına gəldiyini də qəbul etməlisiniz. Əgər vücudunuz bir qüllə, bunları qəbul edən "Mən" də o qüllənin təpəsindəki hücrədə yaşayan bir insan olaraq düşünülərsə, bu qüllənin boyu yüzlərlə metrə çatmalıdır. Əgər "mən" dediyiniz vücud görünüşünüz 1.80 metr isə, əsli ilə təmasda olduğunuzu qəbul etdiyiniz bədən də yüzlərlə metr boyunda olmalıdır.

Bu mövzunu belə bir misalla daha açıqlayaq: Beynində gördüyü avtomobilin çöldəki əsli ilə təmasda olduğunu sanan adam bunları düşünməlidir.

-Maşına aid görüntü insanın beynindəki görmə mərkəzində meydana gələr. Görmə mərkəzi isə ümumi bir neçə $sm^3$ ölçüsündəki bir sahədir. Əgər bu sahəyə bir neçə metr uzunluğunda bir avtomobilin görünüşü sığırsa, bu sahənin də ən az bu genişlikdə olması lazımdır.

-Əgər bu sahə bir neçə metr genişliyindədirsə, bu vəziyyətdə insan beyninin də bu sahə ilə mütənasib şəkildə çox böyük ölçülərdə olması lazımdır.

-Əgər insan beyni belə geniş bir yeri əhatə edirsə, insanın bədəninin də yenə beyniylə düz mütənasib olaraq kilometrlərlə uzunluqda olması lazımdır.

Burada sadəcə bir avtomobili görən adamdan bəhs edildi. Eyni vəziyyəti kilometrlərlə uzanan bir vadiyə baxan adam üçün düşünək. Əgər vadinin əslini gördüyünü iddia edirsə, bu adamın görmə mərkəzi də eyni şəkildə ən az kvadrat kilometrlərcə olan sahədən də böyük olmalıdır. Bu vəziyyətdə insanın beyni, daxili orqanları, qolları, ayaqları da bununla mütənasib şəkildə nəhəng bir ölçüdə olmalıdır.

Belə bir şey mümkün olmadığına görə, çöldə bir neçə metrlik bir avtomobilin və ya kvadrat kilometrlərlə yer əhatə edən bir vadinin var olduğunu və insanın da bunların əslləri ilə təmasda olduğunu iddia etmək son dərəcə məntiqsiz deyilmi?

# QÜLLƏYƏ İNANMAĞIN AXMAQLIĞI

Qüllədəki kiçik adam, bizim iddiamız deyil. Materialistlərin iddia etdikləri düşüncənin təbii bir nəticəsidir. Maddənin varlığının mütləq olduğu yanılmasında israr edən, bizim maddənin xaricdə var olan əsli ilə təmasda olduğumuzu müdafiə edən materialist, bu maraqlı nəticəsini də müdafiə etmək vəziyyətindədir. Çünki, gördüyü və hiss etdiyi bədəninin xaricində, bu bədəni və onun olduğu sahəni təpəsində daşıyan bir başqa bədən daha olduğunu iddia edir.

Bunu ətraflı olaraq düşündükcə, materialist iddianın nə cür axmaq bir cədvəl çəkdiyi açıq şəkildə görülər.

Əslində materialistlər, özlərinə belə ürküdücü gələcək bir canlını insan olaraq təsvir edir. Bu qorxuducu mənzərəni bir az təsvir edək: Materialist, bütün kainatı başının içində kiçik bir yerdə daşıyıb, ona yaxından baxan nəhəng birini təsvir edir. Günəş, Ay, ulduzlar və bütün işıq qaynaqları beyninin içində olduğu üçün də, bəhs etdiyimiz nəhəng, zəruri olaraq qaranlıqda gəzir. Bu nəhəngin ayaqları və qolları -bizim ölçülərimizlə müqayisədə- yüzlərlə metr uzunluqdadır. Yəni materialist, dərin qaranlıqda, beyninin içində daşıdığı kainatla birlikdə gəzən, hara getdiyini kimsənin bilmədiyi böyük bir nəhəngin insan olduğu nəticəsinə gələr.

Ancaq diqqət edilsə, haqqında bəhs etdiyimiz nəhəng adamın varlığına inanmaq, sadəcə materialist fəlsəfənin bir gərəyidir. Çünki gördüyümüz və toxunduğumuz bədənimizin əsli ilə təmasda olduğumuza inanmaq üçün başqa heç bir səbəb yoxdur. Belə bir məlumata nə üçün inanaq? Bunun həqiqi olduğuna dair heç bir dəlil yoxkən, heç kim belə bir bədən görməmiş, eşitməmiş, ona toxunmamış, etdiyi hər hansı bir şeyin izinə rastlamamış ikən, nə üçün bu qəribə nəhəng adamın varlığını qəbul edək?

Materialist fəlsəfəni kor-koranə qəbul etmək xaricində, belə xəyali bir maddi adamın varlığına inanmaq üçün bir səbəb yoxdur.

## Hiss və vəhm mərtəbəsində yaradılmış olan maddə

Bu vəziyyət bizi çox əhəmiyyətli bir həqiqətə aparır: Əlaqədə olduğumuz dünya hisslər dünyası olduğuna görə, bütün bu hissləri sonsuz bilik, ağıl və gücə sahib olan bir Yaradıcı yaradır və bizə göstərir. O Yaradıcı, Quranda keçən ifadəylə "aləmlərin Rəbbi" olan Uca Allahdır.

Bu böyük həqiqətin daha da açıq ifadəsi budur: Bütün varlıqları Allah yoxdan yaratmışdır. Ancaq bütün varlıqlar, İslam alimlərinin ifadəsiylə "hiss və vəhm" mərtəbəsində, yəni bir hiss olaraq yaradılmışdır. Allah insana Öz ruhundan üflədiyi üçün, insan bu qavrayışların bir qismini qəbul edir və bunlara "dünya, kainat, maddə, cisim" kimi adlar verir. Bu adları da onsuz da insana Allah öyrətmişdir. Allahın yaratmış olduğu bu qavrayışların hamısı, Ona qeyd-şərtsiz boyun əymişdir və Onun istəyi ilə hərəkət edər. Yaradılmış varlıqların Allahdan müstəqil bir varlığı yoxdur. Ancaq Allah həqiqətdir, digər hər şey Onun vəhm mərtəbəsində yaratdığı xəyallardır.

İslam tarixinin ən böyük alimlərindən biri olaraq qəbul edilən İmam Rəbbani, "Məktubat" adlı əsərində bunu belə açıqlamışdır:

*"Var olan Allah idi, onunla bir şey yoxdu idi.*

*Vaxta ki, gizli kəmalatının zühura gəlməsini arzu etdi (ortaya çıxmasını istədi); adlarından hər birinə bir mazhar (görünmə yeri) tələb etdi. Ta ki, o mazhara, kəmalatını təcəlli etdirə. Onun vücud mazhariyətini və tevabiini isə, adəmdən (yoxluqdan) başqa bir şey qəbul etmədi. Çünki ... vücudun (varlığın) mukabili və mübayini (tərsi), yalnız adəmdir (yoxluqdur).*

*Məna yuxarıda izah edildiyi kimi olunca, Sübhan Haqq, kəmal-i qüdrəti ilə, adəm (yoxluq) aləmində adlardan hər bir ad üçün mazharlardan bir mazhar təyin etdi. Və onu, hiss və vəhm mərtəbəsində yaratdı. Həm də istədiyi vaxtda və istədiyi şəkildə ... Aləmin sübutu (sabitliyi), hiss və vəhm mərtəbəsində olub xaric mərtəbədə deyil ... Xaricdə (çöldə) belə, uca Vacib Zatın (Allahın) zat və sifətlərindən başqası da sabit və mövcud olmağa..."*

*(Mektubat-ı Rabbani, 470-ci məktub, tərcümə edən: Abdulkadir Akçiçek, Çile nəşriyyat, 1983, səh. 517-18)*

İmam Rəbbani, bir başqa məktubunda isə, bütün maddi aləmin yalnız vəhm mərtəbəsində yaradılmış olduğunu bir dəfə daha belə vurğulayır:

*"Yuxarıda belə bir cümlə istifadə etdim: "Sübhan Haqqın xalqı (Allahın yaratması), hiss və vəhm mərtəbəsindədir." Bunun mənası bu mənaya gəlir: Allahu Təala, əşyanı elə bir mərtəbədə yaratmışdır ki, o mərtəbədə əşya üçün hiss və vəhmdən başqa bir yerdə sübut (sabitlik) və husul (varlıq) yoxdur." (Mektubat-ı Rabbani, 357-ci məktub, tərcümə edən: Abdulkadir Akçiçek, Çile nəşriyyat, 1983, səh. 163)*

Diqqət edilsə, İmam Rəbbani, bizim gördüyümüz aləmin, yəni bütün varlıqların "vəhm mərtəbəsində", yəni hiss səviyyəsində yaradıldığını xüsusilə vurğulayır. Bu vəhm mərtəbəsindəki aləmin xaricində (xaricdə) isə yalnız Allahın Zatı var.

Görüldüyü kimi, müasir fizika və fiziologiya nəticəsində əldə etdiyimiz texniki həqiqətlər, bizlərə İslam alimləri tərəfindən əsrlər əvvəl xəbər verilmiş bir həqiqəti təsdiq edir: Maddə bir xəyaldır, əsl olan isə maddəni yoxdan var edən Uca Allahdır.

## Materializm: Dünya həyatının həqiqi zənn edilən zahiri şərhi

Burada izah etdiyimiz həqiqət, qavrandığında, insanların həyata olan baxışını kökündən dəyişdirəcək çox böyük bir sirdir.

İnsanların çox böyük bir hissəsi, bu sirdən xəbərsiz yaşayar. Gözləriylə gördükləri, əlləriylə tutduqları və adına "maddə" dedikləri qavrayışları mütləq bir həqiqət zənn edərlər. Bu səhvə düşən insanların iki baxış aspekti mövcuddur:

1) Materializm: Maddəni mütləq həqiqət sanan insanların bir hissəsi, maddə xaricində bir şey olmadığı yanılmasını irəli sürər. Bu batil inancın fəlsəfədəki adı materializmdir. Materialistlər Allahın açıq-aşkar olan varlığını cahil bir şəkildə inkar edərlər. Ruhun varlığını və ölümdən sonra həyatın varlığını da inkar edərlər.

2) Yarı materializm: Maddəni mütləq həqiqət sanan insanların bir hissəsi də, maddənin xaricində də bir varlıq aləmi olduğuna inanır, ancaq yenə də maddənin "mütləq varlıq" olduğu, digər varlıq aləminin buna görə daha nisbi olduğunu zənn edir. Geniş olaraq istifadə edilən "metafizik" (fövqəlfiziki) və ya "fövqəltəbii" kimi anlayışların arxasında bu yanılma durar. Bu inanca sahib insanlar, maddənin mütləq bir varlığa sahib olduğunu, Allahın isə (Allahı tənzih edirik) sanki radio dalğaları kimi olduğunu zənn edərlər. Allahın "göydə" və ya kainatın bir başqa yerində olduğu kimi batil inanclar da eyni yanılmanın nəticələridir.

Bu iki baxış aspekti də böyük bir səhvdir və dünyanın həqiqi mahiyyətini qavraya bilməməkdən qaynaqlanır. Allah bu həqiqəti Quranda belə xəbər verir:

**Allahın köməyi ilə. O, istədiyinə kömək edir. O, Qüdrətlidir, Rəhmlidir. Budur Allahın vədi. Allah Öz vədinə xilaf çıxmaz. Amma insanların əksəriyyəti bunu bilmir. Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər.**

**(Rum surəsi, 5-7)**

Ayədə bəhs edilən "görünən tərəfi" sözünün ərəbcə əsli "zahir" sözüdür. "Zahir" anlayışı, "xarici görünüş" mənasını verər. Bunun qarşılığı olaraq da "batin" anlayışı vardır və hadisələrin zahirə görünməyən əsli, iç üzü mənasını verər. İnkarçılar dünyanın yalnız zahirini bilirlər. Bu səbəblə, Allahın varlığını, qüdrətini, bütün varlıqlar üzərindəki hakimiyyətini anlaya bilməzlər. Bəzisi Allahı inkar edər və materialist olar, bəzisi isə Allahın varlığına iman edər, ancaq Onun qüdrətini qavraya bilməz və yarı materialist olarlar. Quranda, Allahın varlığına inanan, ancaq Onun sonsuz qüdrətini, hər şey üzərindəki mütləq hakimiyyətini qavraya bilməyən və buna görə müxtəlif varlıqları Allaha şirk qoşan insanlardan ətraflı olaraq bəhs edilir.

Maddənin yalnız zehnimizdə qavradığımız halını bildiyimizi başa düşən insan isə, bu saydığımız yanılmalardan tamamilə xilas olar və dünya həyatının batinini bilmiş olar.

Bu batinin əhəmiyyətli bir istiqaməti, məkan anlayışının aradan qalxmasıdır.

## Məkan məfhumunun ortadan qalxması

Maddə dediyimiz hər şeyin (öz bədənimiz, ətrafımızdakı cisimlər, üzərinə basdığımız yer, günəş, planetlər, ulduzlar və s.) əslində beynimizdə qəbul etdiyimiz halını bilirik; eyni yuxulardakı kimi. Bu səbəbdən bunların əslində necə olduqlarını bilmərik.

Bu həqiqəti qavrayan insan, insanların çoxunun içinə düşdüyü yanılmalardan xilas olar. Bu yanılmaların birincisi, məkan anlayışına olan inancdan qaynaqlanan "Allah haradadır?" sualı gəlir. İnsanların çoxu Allahı (Allahı tənzih edirik) uzaqda, göydə və ya kainatın bir başqaküncündə zənn edərlər. Bu cahil inanc, Quranda Firon hekayəsində ifadə edilir. Firon, böyük bir cahiliklə, Misirin Rəbbinin özü olduğunu iddia edərkən (Allahı tənzih edirik) Allahın göydə olduğunu iddia etmişdir. Bunu xəbər verən ayələrdə belə buyrulur:

**Firon dedi: “Ey Haman! Mənim üçün bir uca qala tik ki, bəlkə yollara çatım – göylərin yollarına çatım və Musanın məbudunu görüm.... (Mümin surəsi, 36-37)**

Halbuki əslində, Allah hər yerdədir və hər şeyi əhatə etmişdir. Bu həqiqət bir Quran ayəsində belə açıqlanır:

**Şərq də, qərb də, hansı səmtə yönəlsəniz, Allahın üzü (qibləsi) oradadır. Şübhəsiz ki, Allah hər şeyi Əhatə edəndir, biləndir. (Bəqərə surəsi, 115)**

Allah tək mütləq varlıq olaraq, bütün kainatı, bütün insanları, yerləri, göyləri, hər yeri əhatə etmişdir və Allah bütün kainatda təcəlli edir. Hədislərdə rəvayət edildiyinə görə, Peyğəmbərimiz (s.ə.v), Allahın göydə olduğunu söyləyən bir şəxsə doğru söylədiyini bildirmişdir. Ancaq bu rəvayət, Allahın hər yerdə olduğu həqiqəti ilə heç bir şəkildə ziddiyyət təşkil etmir. Çünki, dünyanın sizin olduğunuz nöqtədəki bir insan əllərini göyə qaldıraraq Allaha dua etsə və Allahın göydə olduğunu düşünsə, Cənub Qütbündə bir başqa insan da eyni şəkildə Allaha yönəlsə, Şimal Qütbündə bir insan əllərini göyə qaldırsa, Yaponiyadakı bir insan, Amerikadakı bir insan, Ekvatordakı bir insan da eyni şəkildə əllərini göyə qaldıraraq Allaha yönəlsə, bu vəziyyətdə hər hansı bir sabit istiqamətdən bəhs etmək mümkün deyil. Eyni şəkildə kainatın və kosmosun fərqli nöqtələrindəki cinlər, mələklər, şeytanlar da göyə doğru dua etsə, hər hansı bir sabit göydən və ya istiqamətdən söz etmək mümkün olmayacaq, bütün kainatı əhatə edən bir vəziyyət olacaq. Siz hər hansı səmtə yönəlsəniz, Allahın təcəllisi oradadır.

Allah hər yerdə olduğu üçün, bizə başqa hər şeydən daha yaxındır. Bu, insanların çoxunun aldandığı "məsafə" qavrayışını ortadan qaldıran bir həqiqətdir. İnsanlar tez-tez öz bədənlərinin yanında gördükləri varlıqları "yaxın" olaraq adlandırırlar. "Sizə ən yaxın cisim nədir" deyə soruşulsa, buna, "paltarlarım, saatım, eynəyim" deyə və ya "öz bədənim" deyə cavab verəcəklər. Halbuki, Allah insana bütün bu sayılanlardan daha yaxındır. Bir Quran ayəsində bu sirr belə xəbər verilir:

**And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından daha yaxınıq.**

**(Qaf surəsi, 16)**

Bu həqiqəti qavrayan insan, Allahın onun tək dostu, tək vəlisi, tək köməkçisi olduğunu başa düşər. Beləcə, Quranın ilk surəsi olan Fatihə surəsindəki "Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik" şəklindəki duanın sirrinə vaqif olar. Eyni şəkildə, dünyadakı bütün işlərin Allahın istəyi ilə reallaşdığını, Onun təyin etdiyi qədərə görə işlədiyini, heç bir insanın və varlığın Allahın iradəsi xaricinə çıxa bilməyəcəyini də başa düşmüş olar. Bu, aşağıdakı Quran ayəsində bildirilən sirrin qavranmasıdır:

## Göylərdə və yerdə olanlar Onundur; Hamısı Ona könüldən boyun əyirlər. (Rum surəsi, 26)

Məkanın bir qavrayış olduğunun başa düşülməsi, axirət həyatının necə yaşanacağı mövzusundakı səhv fikirləri və şübhələri da aradan qaldırar. Axirətə inanmayan, ya da axirətin varlığı mövzusunda şübhəsi olan insanların çoxu, son dərəcə sabit və qərarlı sandığı kainatın necə yox olub, bunun yerinə cənnət və cəhənnəmi ehtiva edən yeni bir aləm qurulacağını başa düşə bilməz. Halbuki sabit və qərarlı sandığı kainat, Allahın onun ruhuna göstərdiyi hisslər toplusundan ibarətdir.

Bir qavrayışın yox olub, yerinə bir başqasının insana verilməsi isə Allah üçün çox asandır. İnsan gecə yatdığında gördüyü yuxudan necə bir anda oyana bilirsə və tam fərqli bir aləmə ("həqiqi dünya" sandığı bu dünyaya) keçə bilirsə, dünya həyatından axirət həyatına da o şəkildə keçəcək. Sabit və qərarlı sandığı, halbuki həqiqətdə Allahın hər an yaratması ilə davam edən kainat, böyük bir qiyamətlə yox olacaq və sonra cənnət və cəhənnəm yaradılacaq.

Maddənin bir xəyal olduğunu, məkanın zehnimizdəki qavrayış olduğu və Allahın hiss və vəhm mərtəbəsində yaratdığı bir dünyada yaşadığını anlayan insan, daha bir çox böyük sirrə vaqif olur. İnsanların çoxundan fərqli olaraq, "səbəblər" (yəni Allahın yaratdığı hadisələr və varlıqlar) arasında boğuşmaqdan xilas olar.

Səbəblərə ancaq feli dua olaraq müraciət edər. Həqiqətdə isə hər xeyirin və şərin Allahdan olduğunu bilir və hər işində Ona dua edib Ondan kömək istəyər. Mal və mülk ehtirasına qapılmaz. İnsanların gözlərində böyütdükləri malların və mülklərin; məsələn, görkəmli evlərin, lüks avtomobillərin, bahalı geyimlərin, əhəmiyyətli mövqelərin yalnız zehnindəki halıyla təmasda olduğunu bildiyi üçün bunlara bir dəyər verməz. Bilir ki, Allah bu dəbdəbəli bəzəkləri insanları sınamaq üçün yaratmışdır. Bunları dilədiyinə verir, dilədiyindən geri alır.

Maddənin və məkanın xəyal olduğunu anlayan insan, Allahdan başqa hər hansı bir varlıqdan qorxmaqdan da xilas olar. Gördüyü hər şey Allahın yaratdığı qavrayışlardır və Allahın izni olmadıqca heç kim ona bir şey edə bilməz. Özündən çəkinib-qorxulmağa layiq olan tək varlıq Allahdır. Bunu qavrayan insan, Allahın **"Onlar Allahın risalətini təbliğ edər, Ondan çəkinər və Allahdan başqa heç kəsdən qorxmazlar"** (Əhzab surəsi, 39) ayəsiylə təsvir etdiyi peyğəmbərlərin üstün əxlaqına qovuşmuş olar.

# Allahın təyin etdiyi səbəb-nəticə əlaqələri

Maddənin və məkanın bir xəyal olduğunu anlayan insan, digər insanların bilmədiyi çox əhəmiyyətli bir sirri daha qavrayar: Dünyada keçərli olan səbəb-nəticə əlaqələri, maddənin fiziki xüsusiyyətlərinin nəticəsində və ya insanlar arasındakı əlaqələrin nəticəsində yaranmır. Maddə bir qavrayış olduğuna görə fiziki təsir sahibi ola bilməz. Hər fiziki təsir, ayrı-ayrı xəyal olaraq yaradılır. Məsələn, atılan bir daş şüşəni qırmaz; daşın atılması və şüşənin qırılması görüntüləri ayrı-ayrı yaradılır. Gəmiləri suda üzdürən "suyun qaldırma qüvvəsi" və ya quşları havada saxlayan "havanın qaldırma qüvvəsi" də bir xəyal olaraq yaradılır. Bu səbəbdən, əslində bu kimi "qüvvələr"in hamısı, əslində Allaha aiddir. Bu həqiqətə Quran ayələrində belə diqqət çəkilir:

**Məgər onlar başları üzərində dəstə-dəstə pərvazlanıb uçan, hərdən də qanadlarını yığan quşları görmürlərmi? Onları havada ancaq Mərhəmətli Allah saxlayır. Şübhəsiz ki, O, hər şeyi görür. (Mülk surəsi, 19)**

**Məgər görmürsənmi ki, Allah, yerdə olanları və dənizdə onun əmri ilə axıb gedən gəmiləri, sizin faydanıza verdi. Və izni olmadıqca, göyü yerin üstünə düşməkdən qoruyar. Həqiqətən, Allah insanlara qarşı Şəfqətlidir, Rəhmlidir. (Həcc surəsi, 65)**

Bu sirri qavrayan mömінin digər insanlarla olan əlaqələri də, insanların çoxunun qəbul etdiyi səbəb-nəticə əlaqələrindən fərqli şəkildə olar. Bütün insanları və onların müqəddəratını Allah yaratmışdır və bu səbəblə, insanlar arasındakı səbəb-nəticə əlaqələri də Allahın təyin etdiyi şəkildə olur. Məsələn, bir ayədə, Allah bu sirri xəbər verir:

**Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, haqq yoldan azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir (Maidə surəsi, 105)**

Əgər müsəlmanlar doğru yolu taparlarsa, azanlar onlara heç bir zərər verə bilməyəcəklər. Bu, Allahın bir qanunudur, ancaq sadəcə Onun qüdrətini qavrayan və Ona layiqincə iman edən möminlər üçün keçərlidir. Bir başqa ayədə, Allahın bir başqa qanunu belə xəbər verilir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Bunun kimi digər bir çox sirr, iman edənlər üçün dünyanı tam fərqli bir yerə çevirir. İnkar edənlər üçün dünya həyatı (sahib olduqları bütün mal, mülk, mövqe və ehtişama baxmayaraq) hər cür çətinlik, qorxu, narahatlıq və gərginliklə dolu əzab yeri ikən, möminlər üçün cənnətin nümunəsinə çevrilir.

# Nəticə

Bu kitabda, digər bəzi kitablarımızda ətraflı olaraq araşdırdığımız "maddənin əsli" mövzusunu fərqli bir baxımdan araşdırdıq. *(Ətraflı məlumat üçün baxın. Harun Yəhya, Xəyalın Digər adı: Maddə, Kültür Nəşriyyat, 2001)*

Qüllədəki kiçik adam nümunəsi bizə diqqət çəkici bir həqiqəti göstərir:

Əgər maddənin əsli ilə təmasda olduğunuza inanırsınızsa, o zaman sizin həqiqi bədəniniz, hal-hazırda gördüyünüz bədəniniz ola bilməz.

"Xaricdə", yəni zehninizin xaricində, heç görmədiyiniz, hiss etmədiyiniz bir başqa bədən daha olmalıdır.

Və bu bədən, sizin hal-hazırda gördüyünüz bədəninizdən qat-qat daha böyük bir "nəhəng" dir.

Siz də, sanki bir qüllənin təpəsindəki bağlı bir otağa həbs edilmiş məhkumsunuz.

Bir başqa ifadəylə, böyük ehtimalla həyatınızın başlanğıcından bu yana qəbul edə-edə gəldiyiniz "bədənim bu dünyanın üzərində yaşayır, mən də bədənimdən çölə baxıram" şəklindəki fərziyyə səhvdir. Belə bir şey mümkün deyil.

Bundan daha ağıllı olan nəticə isə, "qüllə" deyə bir şey olmadığını qəbul etməkdir. Çünki bunun varlığına dair heç bir dəlil yoxdur. Bizə belə bir şeyin varlığını düşündürən tək səbəb, maddənin əslini bildiyimizə olan ön mühakimədir.

Bu ön mühakimədən qurtulduğumuzda isə dünyanın əslində çox daha fərqli bir yer olduğunu qavrayarıq:

Gördüyümüz və hiss etdiyimiz hər şey Allahın bizim ruhumuza göstərdiyi qəbullardır. Tək mütləq varlıq isə, hər şeyin Yaradıcısı olan, aləmlərin Rəbbi Uca Allahdır.

# ƏLAVƏ-I: QÜLLƏDƏKİ ADAM HAQQINDA ŞƏRHLƏR

## Zəmanəmizin elm adamları və mütəfəkkirlərinin bu mövzudakı şərhləri

Əlinizdəki kitab nəşrə hazırlanarkən, burada açıqlanan həqiqətlər haqqında bəzi elm adamları və mütəfəkkirlərə suallar yönəldilmişdir. Qərbdəki tanınmış universitetlərin təhsil üzvlərinə internet üzərindən göndərilən mesajlarla, onlara maddənin əsli ilə təmasda ola bilmədiyimiz həqiqəti açıqlanmış və mövzudakı şərhləri soruşulmuşdur. Cavab verənlərin böyük hissəsi, bunun çox əhəmiyyətli bir mövzu olduğunu, materialist düşüncənin bu suala bir cavab gətirə bilmədiyini, özlərinin də bu mövzuda bir şərh edə bilmədiklərini ifadə etmişlər. Aşağıda, bu cavabların bir qismi verilmişdir. (Mesajlar, İngiliscə orijinallarından tərcümə edilmişdir.)

Xarici dünyanın, beyinin xəbərdarlıqları necə şərh etdiyi ilə heç bir əlaqəsi olmaması da mümkündür. Mənə görə hər baxımdan qarşılıq tapması üçün ən asan yol, eyni olmasıdır. Bu səbəblə, qavrayışımız xarici dünyanın tamamilə eynisi olmasa da buna çox yaxın olmalıdır. Beynimiz su dolu bir tənəkə içində üzərkən, bir kompyuter sinirlər boyunca elektrik impulsları göndərə bilər.

Yaxşı, bəs insanlar bu mövzudan niyə narahat olur sualına gəlincə. Hesab edirəm ki, insanlar xarici dünyada özlərinə bir yer tapmaqla çox məşğul olurlar və özləri bilmədikləri virtual bir xarici dünyada öz yerlərini axtarmaq istəmirlər.

Bu çox maraqlı fikirlər üçün təşəkkürlər.

**Denis Cousineau**

**Montreal Universiteti, KANADA**

**Psixologiya bölməsində dosent**

... Təşəkkürlər! Toxunduğunuz nöqtələr heyranlıq vericidir ... İnsanlar güvəndikləri şeyin, düşündükləri, bildikləri kimi olmadığını düşünmək istəməzlər və ya inanclı kəslərsə nəfslərinin hesaba çəkilməsini istəməzlər.

Lakin mənə görə inanc və elm bir-birinin əksi ola bilməz və elə də deyillər. Bunlar həqiqəti bilməyin fərqli yollarıdır. Lakin hər ikisi də tək bir Yaradıcıdan olduğu üçün nəticədə anlaşılmazlığa düşmələri mümkün deyil. Bu səbəblə, elm adamlarına yaradılış haqqındakı kəşfləri mövzusunda minnətdar olmalıyıq və Yaradıcının bizim məlumatımız xaricində, ifadəmiz xaricində olduğunu unutmamalıyıq. Çünki Yaradıcı sonsuzdur və yaradılanlar isə sonludur ... Bu maraqlı məlumat üçün təşəkkürlər.

**Jill Raitt**

**Dini işlər bölməsi professoru**

**Missouri Universiteti, Kolumbiya**

Bunlar yaxşı suallardır. Filosofların uzun müddətdir soruşduğu suallardır. Bu sualları Dekart fərqli bir şəkildə soruşmuşdu. Bunlar bəlkə də beyinin bütün hisslərimizin səbəbi olmadığını göstərir. Lakin bu başqa sualları da ağıla gətirəcək. İnsanlar qorxur. Nədən? Sürətli fərziyyədə olsaq, çünki bu onlara yeni olan bir mövzu və hisslərinin özlərinə söylədiklərinə, həyat formalarına və rəhbər aldıqları ilə uyğun gəlmir.

Uğurlar.

**Jean-Guy Nadeau**

**Teologiya bölməsi**

**Montreal Universiteti, Kanada**

...Bizim "həqiqətlərimizin" beynimizin qavraya biləcəyi ilə rənglənmiş olduğu həqiqətində haqlısınız. Məsələn, fiziki dünyada rəng deyilən bir şey yoxdur. Rəng, beynimizin elektromaqnit radiasiyaya aid fərqli dalğa uzunluqları haqqında etdiyi şərhə əsaslanan psixoloji bir fenomendir. Buna baxmayaraq rəng bizim həqiqətimizin əhəmiyyətli bir hissəsi olaraq qalır və beynimizi, bütün dünyamızı bununla doldurur.

Eyni mövzu digər qavrama qabiliyyəti üçün də edilə bilər....

Uğurlar və təşəkkürlər.

**Boehm, Gary**

**Psixologiya bölməsi**

**Texas Christian Universiteti, Texas**

Təsiredicidir... Dürüst olaraq mənim iş sahəmin bu ovsunlayıcı problemin elmi mürəkkəbliyi anlamağıma çətinlik törətdiyini söyləyə bilərəm. Sualınıza görə insanlar niyə bundan qorxur, bəlkə də insanlar başa düşə bilmədikləri şeyləri araşdırmaq istəyirlər və başa düşmədikdə bu onları qorxudur ...

**Jane Marie Law**

**Cornell Universiteti, Nyu York**

... Mən şəxsən insanların ruh olduğuna inanıram; maddi olmayan şeylər vücudlarımıza elə bir şəkildə bağlanmışdır ki, hiss etməyimiz, düşünməyimiz və s. beynimizin və mərkəzi sinir sistemimizin fiziki vəziyyətinə bağlıdır. Amma bu tərs baxış bucağıdır. Bir çox adam insanların maddi şeylər olduğunu, böyük bir ət olduğunu fikirləşir. "Beyindəki mesajı görən adam kimdir" sualınıza belə cavab verirlər: "Siz, bu böyük ət olan beyninizdə müəyyən elektrik şəkilləri meydana gəldiyində görürsiniz". Bəziləri vizual təcrübənin yalnız elektrik şəkli olduğunu söyləyər. Bu fikirə görə yaşılı görmək üçün beyninizdə yalnız müəyyən bir elektrik modeli olması kifayətdir, başqa bir şeyə ehtiyac yoxdur. Digərləri, görmə hissinin maddədən ayrı olmasına baxmayaraq elektrik şəkillərindən çıxdığını düşünürlər.

Mən şəxsən beyinlərimizə inanma, ümid etmə, hiss etmə və s. hisslərin yaşadığına inanmıram. Mən "mən"im bunları etdiyinə inanıram və mən öz beynim deyiləm. Beynimə yaxından bağlıyam; o qədər yaxın bağlıyam ki, beynimdə yaranan bir zədə bütün hər şeyi etməyimi əngəlləyər. Amma beynimdən fərqliyəm. Mən nəyəm? Mən əşyaları görürəm, mən bir ruham.

**Tom Crisp**

**Fəlsəfə bölməsi**

**Notre Dame Universiteti, İndiana**

İnsanlar gündəlik həyatlarında narahat olmağı sevmirlər. Nizam istəyərlər, idarəli olmaq istəyərlər, əşyaların öz istədikləri kimi olmasını istəyərlər.

Etibarsızlıqla məşğul olmaq istəməzlər, cavab ala bilməməkdən qorxurlar. Maddi durumlarına, ictimai mövqelərinə bağlıdırlar. Əgər xarici gerçəklik olmazsa bütün bunları itirərlər. Və insanlar yalnız qalmaqdan qorxarlar, bütün problemlərlə öz başlarına məşğul olmaqdan qorxarlar. Öz düşüncə güclərinə güvənməzlər və azad deyillər. Və kim olduqlarını tam bilməzlər, özlərini xaricdəki şeylərlə tanıyarlar. (İnsanların bu mövzuları danışmaqdan qaçmalarının) Səbəbi budur.

**Birt Schelling**

# ƏDƏBİYYAT

1) Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, Marcel Dekker, New York, 1977, səh. 2.
2) Alexander I. Oparin, Origin of Life, Dover Publications, New York, 1953, səh. 196.
3) "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, noyabr 1982, səh. 1328-1330.
4) Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7.
5) Jeffrey Bada, Earth, fevral 1998, səh. 40.
6) Leslie E. Orgel, "The Origin of Life on Earth", Scientific American, cild 271, Oktyabr 1994, səh. 78.
7) Charles Darvin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189
8) Charles Darvin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184.
9) BG Ranganathan, Origins ?, The Banner Of Truth Trust, Pennsylvania, 1988.
10) Charles Darvin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179.
11) Charles Darvin, The Origin of Species, səh. 172, 280
12) Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133.
13) 13.Douglas J. Futuyma, Science on Trial, Pantheon Books, Nyu York, 1983, səh. 197.
14) Solly Zuckerman, Beyond The Ivory Tower, Toplinger Publications, New York, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389.
15) J. Rennie, "Darwin s Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992.
16) Alan Walker, Science, cild 207, 1980, səh. 1103; AJ Kelso, Physical Antropology, 1-ci nəşr, JB Lipincott Co., New York, 1970, səh. 221; MD Leakey, Olduvai Gorge, cild 3, Cambridge University Press, Cambridge, 1971, səh. 272
17) Time, noyabr 1996.
18) SJ Gould, Natural History, cild 85, 1976, səh. 30.
19) Solly Zuckerman, Beyond The Ivory Tower, Toplinger Publications, New York, 1970, səh. 19.
20) Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28.

**21) Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43**

35

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi.

Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin

mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri

Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

# Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- ✓ **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- ✓ **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- ✓ **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- ✓ **-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

*"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles*

*Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn

təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən

yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- ✓ *Australopithecus*
- ✓ *Homo habilis*
- ✓ *Homo erectus*
- ✓ *Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science,*

*c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

# Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər.

Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

# Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə

toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir.

Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz.

Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni

yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah’ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və**

**qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!**

**(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)**

**Necə bir dünyada yaşayırsınız?**

**Sərt bir yerin üzərində uzanan, içində insanların, ağacların, dənizlərin və ya binaların olduğu, üzərində buludların gəzişdiyi, daha yuxarıda nəhəng bir kosmos boşluğunun uzandığı bir dünyadırmı bura?**

**Siz də bu dünyanın içindəki milyardlarla insandan birimisiniz?**

**Əgər bu suallara "bəli" cavabı versəniz, yanılmış olarsınız.**

**Əgər bu suallara "bəli" cavabı verirsinizsə, sizin üçün çox əhəmiyyətli olan bir həqiqəti bəlkə həyatınız boyunca gözardı etmisiniz deməkdir.**

**Çünki siz yuxarıda təsvir edildiyi kimi bir dünyada yaşamırsınız. Əslində dünyanız çox daha kiçikdir. Bu dünyanın içində, nəinki milyardlarla kilometrlik məsafələr, ya da işıq ili uzaqlığındakı qalaktikalar, bir neçə metrlik məsafə belə yoxdur. Siz əslində çox kiçik və qapalı bir məkanda yaşayırsınız: Nəhəng bir qüllənin təpəsindəki kiçik, qapısı möhürlənmiş bir otaqda. Bu otaqdan həyatınız boyunca heç çıxmadınız. Bu otağı tərk edib heç bir yerə gedə bilmədiniz. Sadəcə, otağın divarlarına əks etdirilən müxtəlif formalı, insanlar, məkanlar gördünüz. Otağın içindəki gizli spikerlərdən çıxan səsləri eşitmisiniz. Həqiqətdə qüllənin təpəsindəki bu kiçik otaqda sizdən başqa heç kim yoxdur. Tək-tənhasınız!**

**Bəhs etdiyimiz qüllə sizin bədəniniz, bu qüllənin təpəsindəki kiçik otaq (yəni sizin dünyanız) isə beyninizdir.**

**Bu kitabda sizə bu həqiqət izah edilir. Kitab boyunca oxuduqlarınız, indiyə qədər vərdiş etdiyiniz bir çox düşüncə və qavrayışla böyük ehtimalla uyğun gəlməyəcək. Ancaq burada izah edilənlər, fəlsəfi bir fikir ya da fərqli bir şərh forması deyil, elmin ortaya qoyduğu dəlillərə əsaslanan konkret bir həqiqətdir. Bu səbəblə, vərdişlərə əsaslanmadan, ağıl və məntiqlə düşünüldüyündə bu həqiqətin rədd edilməsi mümkün deyil.**

MÜƏLLİF HAQQINDA: Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.